# Azərbaycan maarifçiləri Avropanın təsiri ilə

Çingiz ABDULLAYEV,
*texnika elmləri namizədi*

*Bu günlərdə insanlar nəinki sona çatmış yüzilliyin nəticələrini yekunlaşdırır, həmçinin üçüncü minilliyin həyat fəaliyyətinin istiqamətlərini müəyyən edir. Özünün sosial mədəni inkişafında o bir - birini əvəzləyən, hər biri müəyyən tip və səviyyəli mədəniyyət ilə xarakterizə olunan tarixi pillələrdən keçmişdir. Bu inkişaf prosesində ümumi insan ideallarının ilk cəmiyyətlərinin dərinliklərində, onların intellektual, etik və texnoloji münasibətdə olan mənəvi və maddi dəyərləri daimi peyda olur. Dayanmadan inkişaf edən mədəni ənənə bu dəyərləri həm zaman, həm məkan baxımından yeni keyfiyyətdə-xalqlar mədəniyyəti və mədəniyyəti yaradanların yaradıcılıq peşəkarlığı səviyyəsində qoruyur.*

Tarixi təcrübəyə müraciət etmədən öncə, dünya mədəniyyətinin inkişafının vacib mərhələlərini anlamağa və qiymətləndirməyə köməklik edən, mədəniyyətin bir neçə nəzəriyyə-anlayışı məsələlərini və insanlığın inkişafının sosial mədəni qanunvericiliyini nəzərdən keçirək. Ümumi mədəniyyətşünaslıq tədqiqatları dərəcəsində bizim tərəfimizdən dialektika (Hegelin fəlsəfəsini daxil etməklə), tarixşünaslıq və nəzəriyyə prinsipləri (Lütvizadənin natamam məntiq nəzəriyyəsini daxil etməklə) qəbul edilmişdir. Bu metodologiyaya arxalanmaq, tarixi prosesin, insanlığın mənəvi və maddi mədəniyyətinin tək vahid kimi elmi anlamını asanlaşdırır.

İnsanın fikirləri və hissiyyatları, keçmişdə yaradılmış mənəvi mədəniyyət bizim günlərə kimi insan davranışına zəmin yaradırdı. İnsanın və cəmiyyətin inkişafı prosesində anlam, baxış və dad, istiqamətlənmənin dəyərləri və insan xarakteri onun vətəndaş mövqeyini, aktivliyini, enerjisini və yaradıcılıq təşəbbüsünü müəyyən edir. Bununla yanaşı onun fəaliyyətinin nailiyyətləri son nəticədə onun biliyindən, bacarığından və intellektual gücündən asılıdır. Mədəniyyət onun yaradıcısı və istehlakçısı olan insanın özündən başlayır. Bizim tərəfimizdən insan mədəniyyətinin formulası işlənilmişdir, insan mədəniyyəti beş əsas xarakteristikası ilə ölçülür: biliklə, bacarıqla, təşkilatçılığı ilə, mənəvi və yaradıcılıq fəaliyyəti ilə. Bilik elmdə və təhsildə yaranır. Bacarıq həyat fəaliyyəti, təcrübədən, enerjidən və s. asılıdır. Təşkilatçılıq qayda-qanunu, sosial cavabdehliyi və s. nəzərdə tutur. Mənəviyyat tərbiyədən asılıdır və ağıla, humanizmə, məhəbbətə, düzgünlüyə, ardıcıllığa, patriotizmə və s. əsaslanır. Yaradıcılıq fəaliyyəti daxili motivlərlə dıcılıq fəaliyyəti daxili motivlərlə can atmaqla, özünü təsdiqləməklə, özünü müasirləşdirməyə çalışmaqla şərtlənmişdir. Sistemli yanaşma onu göstərir ki, mədəniyyət özündə insan ağlı, hissiyyatı və fiziki əməyi ilə yaradılmış bütün hər şeyi əks etdirir. Bu insan tərəfindən yaradılmış «ikinci süni təbiətdir». İnsan fiziki bədəndən və ruhdan ibarətdir. Əgər fiziki bədən öz varlığına son qoyursa və ya ruhun maddi daşıyıcısı-insan beyni zədələnibsə, onda ruh yox olur və ya özünün əsas funksiyasını yerinə yetirmək-insanın həyat fəaliyyətinin idarə edilməsi qabiliyyətində olmur. Bunun kimi insan bədəni və ruhu bir vahidlik təşkil etdiyi kimi mənəvi və maddi mədəniyyət bir vahidlik təşkil edir-insan ruhunun məhsulu onun əqli, emosional və fiziki fəaliyyətidir. Ruhi mədəniyyət insan əqlinin məhsulu olduğu kimi maddi mədəniyyətin hər hansı əşyası insanın intellektual əməyinin maddiləşməsinin nəticəsidir. İnsanın mədəniyyət formulu mədəniyyətin elmi anlamı, mədəniyyətin inkişafının beş faktoru və müasir cəmiyyətin mədəniyyətinin sosial strukturu ilə birlikdə elmi birləşmədə, insan mədəniyyətinin təzahürlərinin analizinin və anlamının, dövlətin və cəmiyyətin mədəniyyətinin inkişafının praktik metodoloji açarıdır.

Mədəniyyət həmçinin milli ölçülərə malikdir. Milli mədəniyyətin fenomeni müxtəlif siniflərin ideallar və dəyərlərinə, sosial qruplara-yaradıcı intelegensiyaya, dövlət çinovniklərinə və sahibkarlara, xidmətçilərə, fəhlələr sinfinə, fermerlərə, hərbi xidmətçilərə, qadınlara və cavanlara

əsaslanır. Hər bir Milli mədəniyyətdə müasir sivilizasiya mədəniyyəti ilə yanaşı, az və ya çox miqdarda feodal və hətta vəhşi mədəniyyəti vardır. Bu qlobal, ərazi, Milli, lokal və insan səviyyəsində təzahür edən mədəniyyətin inkişafının qeyri- bərabərliyi ilə izah edilir. Milli mədəniyyətlər, gündəlik və peşəkar mədəniyyətlər, elmi və bədii fikirlər, texniki və humanitar mədəniyyət arasındakı dialektik müxtəlifliklər qanunauyğunluqdur. Yüksək beynəlxalq mədəniyyəti əldə etmək üçün milli dövlətlərin yüksək mədəniyyəti vacibdir. Özündə Milli xüsusiyyətləri və mədəniyyətin universal komponentlərini cəmləşdirərək o mədəniyyətlər arasındakı müxtəlifliyin aradan götürülməsinə və onların vahid insani dəyərlər əsasında birləşməsinə köməklik edir. Bu da öz növbəsində dövlətlərin Milli ənənələri saxlayaraq mədəniyyət siyasətinə, bacarığına pozitiv yüksək tələbatı təqdim edir, digər dövlətlərin mədəniyyət təcrübəsindən proqresiv yeniləşmə ilə mədəniyyəti daim inkişaf etdirir. Bizə belə gəlir ki, bu cür yanaşmada Qərb və Şərq arasındakı əməkdaşlıqda və qarşılıqlı anlamanın həllində, həmçinin Milli dövlətlərin inkişafının geniş imkanları saxlanılır.

XIX əsrdə Avropa mədəniyyət inkişafının vacib faktoruna həm dövlət sərhədləri kənarında, həm də dövlətlər arasında mədəniyyət əvəzləşmələri xidmət etmişdir. Buna nəqliyyatın və rabitənin inkişafı təsir etmişdir. Açılışlar və icadlar tez bir surətdə tirajlaşdırılırdı, müxtəlif dövlətlərdə yayılırdı və geniş kütlənin istifadəsinə verilirdi. Beynəlxalq əməkdaşlığın inkişafı və mənəvi həyatın internosionallaşması dayanaqlı xarakter almışdır. Tərcüməçilik fəaliyyətinin nailiyyətləri dil səddinin aradan götürülməsinə və Milli mədəniyyətlərin qarışmasına kömək etdi. Avropa xalqlarının ümumi mədəniyyət səviyyəsinin artımı baş verdi.

Avropa və Rusiya mədəniyyətlərinin inkişafı Azərbaycana da öz təsirini göstərmişdir. Yeni zamanda Azərbaycanın sosial mədəni inkişafının tələbləri XIX əsr Azərbaycan sosial mədəniyyətində yeni olan Azərbaycan Maarifçiliyini yaratdı. O özündə feodalizmin demokratik müxalifətini əks etdirirdi, feodal qaydalarına, orta əsr cəmiyyətinin sosial strukturuna, despotizma əvəz diktaturaya, yaradıcı fikrin köləliyinə qarşı intellektual və sosial baxımdan əks çıxırdı. Azərbaycan Maarifçiliyində əsas yer maarifçilər A.Bakıxanova, Mirzə Şəfi Vazehə, Mirzə Kazımbəyə, M.F.Axundova, Həsən bəy Zərdabiyə məxsusdur. Orta əsrlərin azad düşüncəliyinə söykənərək, bu adamlar Azərbaycan mədəniyyətini Avropa və rus mədəniyyəti ilə çarpazlaşdıraraq yaradıcılıq fəaliyyəti ilə məşğul olurdular. Onların həyat görünüşünün əsasında düzgün təcrübəli fəaliyyətin qurulması əqlin tələbindən, elmi bilikdən, zamanın tələb və təcrübəsindən irəli gəlirdi. Odur ki, elm, təhsil və maarifçiliyə, Maarifçilik xadimləri tərəfindən tarixi vaciblik kimi baxılırdı.

Sosial mədəni inkişafın nailiyyətləri və qazancları ilk öncə insan faktoru, effektlik kriteriyaları və dövlətin intellektual gücünün xidmət etdiyi imkanlarla ölçülür. Yeni zaman Avropada elmin inkişafı dövrü olmuşdur. XVII əsr dəqiq elmlərin inqilabi artımı dövrü olmuşdur, XVIII əsrdə hiss ediləcək dərəcədə fəlsəfə, XIX əsrdə isə tarix inkişaf etmişdir.

Avropada Yeni zamanda həqiqi elmlərin və fəlsəfənin inkişafında, yeni ideologiyanın və demokratik mədəniyyətin formalaşmasında əsas rolu Tomas Qobbs, Pyer Qassendi, Rene Dekart, Benedikt Spinoza, Con Lokk, Qotfrid Vilhelm Leybins və digər alim və filosoflar oynamışdılar. Burada böyük xidmətlər fransız maarifçiləri Pyer Beylyu, Şarl Lui Monteskyeyə, Mari Fransua Voltere, Jan Jak Russoya, Deni Didroya, Cülyen Ofre de Lamertiyə, Pol Anri Gülbaxa, Klod Adrian Qelvesiyə, Jan Batist Robinə məxsusdur. XVIII əsr insanlığının inkişafına ən böyük qoyuluş fransız ensklopediyaçıları tərəfindən tarix və elmi nəzəriyyə, incəsənət və xalq mədəniyyəti üzrə lüğətin tərtibi olmuşdur. Bu Yeni zamanın ən şanlı mədəniyyət abidəsi olmuşdur. Ensklopediya Avropa xalqlarının intellektual və mənəvi inkişafında böyük rol oynadı, əhali kütləsinə inqilabi təsir göstərdi. XVIII əsrdə fəlsəfi, elmi və iqtisadi fikrin inkişafına böyük təsiri David Yum, İmmanuil Kant, Adam Smit, David Rikkardo etmişdir. Bu dövrdə Rusiyada maarifçilik işini inqilabçılar A.İ.Radişev, V.Q.Belinskiy, N.Q.Çernışevskiy, Q.S.Skovoroda həyata keçirirdi.

Müasir dövrdən irəli gələrək cəmiyyətdə biliyin məlumata çevrilməsi fəal gedir və belə cəmiyyət məlumatlı adlana bilər və onu əsas vəsait məlumatı olan sivilizasiyanın inkişafının yeni etapında postindustrial cəmiyyət kimi də müəyyən etmək olar. Məlumatlı cəmiyyətin fərqli həddləri aşağıdakılardır:

- cəmiyyətin həyatında məlumatın rolunun artması;
- daxili məhsulun dövriyyəsində və xidmətində məlumat qovşağının payının artımı;
- qlobal məlumat sahəsinin yaradılması.



Avropa mədəniyyətinin bütün proseslərin nəticə nöqteyi nəzərindən reallığı və analizi üzərində nəzarəti tendensiyası, bütün hərəkətlərdə, planlarda, məqsədlərdə, hətta xəyallarda nəticənin əldə edilməsi və praktiki istiqaməti vacib olan, dünya mədəniyyətinin ümumi inkişafı və proqmatik istiqamətli düşüncə ilə şərtlənir.

Proqmatizm tendensiya insanlıq tərəfindən əsrlər boyu işlənən dəyərlərin və orientasiyanın dəyişməsinə gətirib çıxardır. Bu dəyişikliyə misal üçün insan təkliyini və bütün vəziyyətlərdə hətta praktiki nəticəsi olmayan hallarda məsələn, sosial sahədə, iqtisadi divident gətirməyən sahələrdən də xeyir güdməyi göstərmək olar. Proqmatizmin əsasında iqtisadiyyat, mədəniyyət, siyasət və digər ictimai sferanın idarəedilməsi qurulur.

Subyektivizm dünyaya, insana, bütün ətraf həqiqətinə münasibət üsuludur ki, orada subyektin vəziyyəti mərkəzidir, artırılır və tamamiləşdirilir.

Avropa mədəniyyəti ənənələrində tamamiləşmə o vaxt meydana çıxır ki, insan vacib vahid kimi, yəni, tamamilə qiymətli qəbul edilir və bu əsasla şəxsiyyət hüququnun formal bərabərliyi, demokratiyanın müasir modeli kimi müasir həyat prinsipləri qurulmuşdur.

Avropa ənənələrinin subyektivizmi və onun tərəfindən işlənilmiş prinsiplər özünü müasir həyatın çox sferalarında təzahür etdirir: şəxsiyyət azadlığı, elm, incəsənət sferalarında, gündəlik həyatda. Subyektivizm Renessans və Yeni zaman dövrünün mədəniyyətindən doğub və heç bir digər mədəniyyət ənənələrinə xas deyil. Orta əsrlərdə və antiklikdə insan şəxsiyyətinin heç bir vacibliyi və qiyməti yox idi.

Elm və texnikanın açılışları, nailiyyətləri, təhsil və maarifçilik ictimai fikrin inkişafına köməklik etdi. Yeni zaman Avropasının hüquq və iqtisadi mədəniyyətinin demokratikləşməsində böyük rolu ingilis siyasi iqtisadiyyatı oynamışdır. Demokratiyanın ideologiyası, prinsipləri, normaları xalqın əqlinin dərinliklərinə yol açdığı kimi, aristokratiyanın elitar mədəniyyətinə də yol açmışdır. Cəmiyyətdə demokratik mədəniyyətin yaxşılıq, həqiqət, düzgünlük, dostluq, məhəbbət, kollektivizm, qarşılıqlı kömək kimi dəyərləri öz yerini tapırdı. Lakin maarifçiliyin zəif tərəfləri də var idi. Maarifçilər hələ tarixi düşüncəyə malik deyildilər, lakin elmin mənasını, tarixin prinsiplərini başa düşürdülər. Tarixin prinsiplərinin yaranmasında böyük rol alman alimi Georgiy Vilhelm Fridrix Hegelin payına düşür. O Yeni zamanın demokratik mədəniyyətinin inkişafında və formalaşmasında böyük rol oynamışdır.

**Ədəbiyyat**

1. *Kulturologiya. Fuad Məmmədov, Bakı 2006*
2. *"Tətbiqi kulturologiya" Azərbaycan Dövlət İncəsənət Universiteti, dərslik, Bakı 2006*

**ADMİU -nun Kulturologiya fakültəsi tərəfindən təqdim edilib - 3.03.2007.**
**Rəyçi: fəlsəfə elmləri doktoru A.Əlizadə.**

**Azerbaijan's enlighteners under tne influence of Europe**
**Summary**

The attainments and progresses of the social cultural development are measured with the possibilities which are used most of all with the factors of man, the criteria of effectiveness and the intellectual knowledge of the country.